# QISACIQ AZƏRBAYCAN TÜRKCƏSİ HAQQINDA

Seçib Yenidən Sahmanlayan:
Küyülü Səid Nəccari

## Önsöz

Əlinizdəki yazının hədəfi Azərbaycan Türkcəsinin səsbilimi və qramerinin əsaslarını öyrətməkdir. Bu yazını oxumaqla Azərbaycan Türkcəsi haqqında təməl bir bilgiyə sahib olacaqsınız.

# İçindəkilər:

1-ci Dərs: Əlifba .... 3
2-ci Dərs: Səs .... 5
3-cü Dərs: Kar və Cingiltili Səssizlər .... 6
4-cü Dərs: Qalın və İncə Səslilər .... 7
5-ci Dərs: Dodaqlanan və Dodaqlanmayan Səslilər .... 8
6-cı Dərs: Səsli Uyğunluğu (Ahəng) Qanunu .... 9
7-ci Dərs: Ardıcıllıq Qanunu .... 10
8-ci Dərs: Heca .... 11
9-cu Dərs: Sözlərin Son Hərfi .... 12
10-cu Dərs: Söz və Onun Quruluşu .... 13
11-ci Dərs: Düzəltmə Sözlər və Sözdüzəldici Şəkilçilər .... 14
12-ci Dərs: Mürəkkəb Sözlər və Onların Yazılışı .... 15
13-cü Dərs: Şəkilçilərin Növləri .... 16
14-cü Dərs: Şəkilçilərin Yazılışı .... 17
15-ci Dərs: Nitq Bölümləri .... 18
16-cı Dərs: İsim (Ad) .... 19
17-ci Dərs: İsimlərin Quruluşca Növləri .... 20
18-ci Dərs: İsimlərdə Bağlılıq .... 23
19-cu Dərs: İsmin Halları .... 26
20-ci Dərs: Bağlılıq və Hal Şəkilçiləri Birlikdə .... 29
21-ci Dərs: İsimlərdə Xəbər Əlaməti .... 32
22-ci Dərs: Sifət .... 34
23-cü Dərs: Sifətlərin Dərəcəsi .... 38
24-cü Dərs: Say .... 40
25-ci Dərs: Əvəzliklər .... 41
26-cı Dərs: Eyləm .... 43
27-ci Dərs: Anasöz .... 45
28-ci Dərs: Eyləmin Danması .... 46
29-cu Dərs: Tə'sirli və Tə'sirsiz Eyləmlər .... 47
30-cu Dərs: Eyləmlərin Növü .... 49
31-ci Dərs: Eyləmlərdə Zaman .... 51
32-ci Dərs: Eyləmlərdə Bitişən Şəxs Əvəzlikləri .... 55
33-cü Dərs: Eyləmin Şəkilləri .... 56
34-cü Dərs: Eyləmin Ümumi Şəkilləri .... 59
35-ci Dərs: Eyləmlik Bağlamalar .... 60
36-cı Dərs: Zərf .... 62
Qaynaqça: .... 63

## 1-ci Dərs: Əlifba

Azərbaycan Türkcəsi, indiyəcən, üç əlifbada yazılıbdır. Quzey Azərbaycanda Ərəb, Kiril və Latın əlifbalarında, Güney Azərbaycanda isə, yalnız, Ərəb əlifbasında yazılıb. Burada üç əlifbanın üçü də, örnəklərlə gətirilir.

| LATIN | | КИРИЛ | | عرب | |
|---|---|---|---|---|---|
| **A a** | **a**na | **А а** | **а**на | آنا | آ ا |
| **B b** | **b**a**b**a | **Б б** | **б**а**б**а | بابا | ب بـ |
| **C c** | **c**an | **Ҹ ҹ** | **ҹ**ан | جان | ج جـ |
| **Ç ç** | **ç**ay | **Ч ч** | **ч**аj | چای | چ چـ |
| **D d** | **d**ar | **Д д** | **д**ар | دان | د |
| **E e** | **e**v | **Е е** | **е**в | ائو | ائـ ئـ ئ |
| **Ə ə** | **ə**t | **Әә** | **ә**т | ات | ا ـه ه |
| **F f** | **f**al | **Ф ф** | **ф**ал | فال | ف فـ |
| **G g** | **g**et | **К к** | **к**ет | گئت | گ گـ |
| **Ğ ğ** | a**ğ** | **Ғ ғ** | а**ғ** | آغ | غ غـ |
| **H h** | **h**ara, **h**al | **һ h** | **һ**ара, **һ**ал | هارا، حال | ه هـ ـهـ ح حـ |
| **X x** | **x**al | **Х х** | **х**ал | خال | خ خـ |
| **I ı** | **ı**ş**ı**q | **Ы ы** | **ы**ш**ы**г | ایٛشیٛق | یٛ یٛـ ایٛـ |
| **İ i** | **i**st**i** | **И и** | **и**ст**и** | ایگید | ی یـ ایـ |

| LATIN | | КИРИЛ | | عرب | |
|---|---|---|---|---|---|
| J j | **j**el | Ж ж | **ж**ел | ژئل | ژ |
| K k | **k**içi**k** | К к | **к**ичи**к** | کیچیک | ک کـ |
| Q q | **q**an | Г г | **г**ан | قان | ق قـ |
| L l | **lal** | Л л | **лал** | لال | ل لـ |
| M m | **m**ən | М м | **м**ән | من | م مـ |
| N n | **n**ə**n**ə | Н н | **н**ә**н**ә | ننه | ن نـ |
| O o | **o**taq | О о | **о**н | اوْن | اوْ وْ |
| Ö ö | **ö**z | Ө ө | **ө**з | اؤز | اؤ ؤ |
| P p | **p**ay | П п | **п**аj | پای | پ پـ |
| R r | a**r**tıq | Р р | а**р**тыг | آرتیٖق | ر |
| S s | **s**ən, **s**aniyə, **s**abun | С с | **с**ән, **с**анијә, **с**абун | سن، ثانیه، صابون | س سـ ث ثـ ص صـ |
| Ş ş | **ş**al | Ш ш | **ш**ал | شال | ش شـ |
| T t | **t**ar, **t**ayfa | Т т | **т**ар, **т**ајфа | تار، طایفا | ت تـ ط |
| U u | **u**m**u**d | У у | **у**м**у**д | اوُموُد | اوُ وُ |
| Ü ü | **ü**st | Ү ү | **ү**ст | اوست | او و |
| V v | **v**ətən | В в | **в**әтән | وطن | و |
| Y y | **y**ar | J j | **j**ар | یار | ی یـ |
| Z z | **z**ığ, **z**illət, **z**ərbə, **z**alim | З з | **з**ығ, **з**илләт, **з**әрбә, **з**алим | زیٖغ، ذیللت، ضربه، ظالیم | ز ذ ض ضـ ظ |
| ' | şe'r | ' | ше'р | شعر | ع عـ أ |

Aşağıdakı cümləni üç əlifbada yazırıq:
- Azərbaycan bizim vətənimizdir.
- Азәрбајҹан бизим вәтәнимиздир.

- آذربایجان بیزیم وطنیمیزدیر.

## 2-ci Dərs: Səs

Azərbaycan Türkcəsində səslər iki yerə bölünür: səslilər və səssizlər. Səsliləri tələffüz edəndə, hava azad şəkildə ağızdan çıxır. Azərbaycan Türkcəsində doqquz səsli vardır:

- **Aa**: *adam*
- **Ee**: *ev*
- **Əə**: *əl*
- **Iı**: *qız*
- **İi**: *dil*
- **Oo**: *yol*
- **Öö**: *göz*
- **Uu**: *duz*
- **Üü**: *üz*

Səssizlərin tələffüzündə, hava axını ağızdan çıxanda, bir maneyə rast gəlir. Azərbaycan Türkcəsində 23 səssiz vardır:

***B, C, Ç, D, F, G, Ğ, H, X, J, K, Q, L, M, N, P, R, S, Ş, T, V, Y, Z***.

## 3-cü Dərs: Kar və Cingiltili Səssizlər

Azərbaycan Türkcəsinin səssizləri ya kar ya da cingiltili olur.

Kar səssizləri tələffüz edəndə, səs telləri titrəmir və səs eşidilmir**:** ***p, t, k*** kimi.

Cingiltili səssizləri tələffüz edəndə, səs telləri titrəyir və səs eşidilir: ***b, n, z*** kimi.

Azərbaycan Türkcəsində kar səssizlərə nisbət, cingiltili səssizlər çox işlənir.

## 4-cü Dərs: Qalın və İncə Səslilər

Azərbaycan Türkcəsində olan səslilərdən dördü qalındır:

- **a**
- **ı**
- **o**
- **u**

Bu səsliləri deyəndə, dil arxa tərəfdə yuxarı qalxır və səs qalın çıxır. Bunlara dilarxası vəya qalın səslilər deyilir.

Qalan beş səsli incədir**:**

- **e**
- **ə**
- **i**
- **ö**
- **ü**

Bu səsliləri deyəndə, dilin qabaq bölümü öndamaqda qalır və səs incə çıxır. Bunlara incə səslilər deyilir.

Səslilərdən **o, ö, e,** əsl Türk sözlərində birinci hecada gələ bilər.

***"Azərbaycan Türkcəsinin səsliləri qısadır."***

# 5-ci Dərs: Dodaqlanan və Dodaqlanmayan Səslilər

Səslilərin bə'zisini deyəndə, dodaqlar girdələşib irəli uzanır. Belə səslilərə dodaqlanan səslilər deyilir:

- **o**
- **ö**
- **u**
- **ü**

Qalan beş səslini deyəndə dodaqlar təbii halda qalır və səs tələffüzünə qatılmır. Bunlara dodaqlanmayan səslilər deyilir:

- **a**
- **e**
- **ə**
- **ı**
- **i**

## 6-cı Dərs: Səsli Uyğunluğu (Ahəng) Qanunu

Əsl Türk sözlərində, səslilər ya incə olar ya da qalın. Demək, bir sadə sözdə səslilərin hamısı bir cinsdən olmalıdır.

Sözlərdə qalın vəya incə səslilərin bir cinsdən olmasına səsli uyğunluğu (ahəng) qanunu deyilir**,** örnək- lər:

- **qalın:**
  - **oyun**
  - **ayaq**
  - **dodaq**
  - **yoldaşlıq**
  - **vurğun**
- **incə:**
  - **evli**
  - **eşik**
  - **süpürgə**
  - **kəndçi**
  - **dirsək**
  - **ödəmək**

## 7-ci Dərs: Ardıcıllıq vəya Səslilərin Bir-birinin Dalınca Gəlməsi Qanunu

Əsl Türk sözləri, səslilər müəyyən tərtiblə düzüləndə, düzəlir.

Bu tərtibə, ardıcıllıq vəya səslilərin bir-birinin dalınca gəlməsi qanunu deyilir.

Demək, bu dilin sözünün birinci səslisini bilsək, səsli uyğunluğu qanunu yardımı ilə, sonrakı hecalarda gələn səsliləri də tə'yin edə bilərik.

Örnək:

- **getdikcə**
- **dondurma**
- **tökülmək.**

## 8-ci Dərs: Heca

Sözlər parça-parça deyilir; hər parça bir hecadır və hər hecada bir səsli vardır:

- **birhecalı**: at, göz
- **ikihecalı**: ana, qoçaq
- **üçhecalı**: qardaşlıq, dumanlıq
- **dördhecalı**: yazıçılıq, Azərbaycan
- **beşhecalı**: Azərbaycanlı, yaşıllaşdırmaq

Azərbaycan Türkcəsinin əsl sözlərini nəzərə alaraq, beş növ heca görürük :

1. **Tam açıq heca:** sözün əvvəlində gələr və yalnız bir səslidən ibarət olar, örnək: *a + na, a + çıq*.
2. **Açıq heca**: bir səssizlə bir səslidən ibarətdir və sözün hər yerində gələ bilər, örnək: *ba + ba, bi + bi*.
3. **Qapalı heca**: bir səsli ilə bir səssizdən qurulan hecadır. Bu heca sözün hər yerində gələ bilər, örnək: *at, üç*.
4. **Tam qapalı heca**: iki səssizin arasında bir səslidən ibarət olan hecadır. Bu heca sözün hər yerində işlənir, örnək: *bal, gül*.
5. **İkinci tam qapalı heca**: üç səssiz və birinci səssizdən sonra gələn bir səslidən ibarət olan hecadır. Sonrakı iki səssizdən biri mütləq cingiltili olmalıdır, örnək: *sərt, qurd*.

## 9-cu Dərs: Sözlərin Son Hərfi

Azərbaycan Türkcəsinin sözləri eşidildiyi kimi yazılır:

1. Axırı *"q"* ya *"ğ"* vəya *"x"* tələffüz olan sözlər, əgər təkhecalı olsalar, *"ğ"* ya *"x"* və əgər iki vəya çoxhecalı olsalar, *"q"* şəklində yazılar. Örnək: *çox, yağ, bax, zığ, uşaq, qaçmaq*.
2. Qalın səsli anasözlər (məsdər) *"q"*, incə səslilər isə *"k"* ilə bitər, örnək: *yazmaq, olmaq, yemək, sönmək*.
3. Sözlərin axırındakı *"q"* hərfi, iki səsli arasına düşsə, *"ğ"* hərfinə çevrilər, örnək: *uşaq + ı → uşağı*.
4. İki vəya çox hecalı sözlərin sonundakı *"t"* hərfi, iki səsli arasına düşəndə, *"d"* hərfinə çevrilər. Örnək: *qaçırt + ır → qaçırdır, unut + ur → unudur*.
5. Sözlərin sonundakı *"k"* hərfi, iki səsli arasına düşəndə, *"g"* vəya *"y"* hərfinə çevrilir. Örnək: *çörək + i → çörəyi (çörəgi), əmək + i → əməyi (əməgi)*.

## 10-cu Dərs: Söz və Onun Quruluşu

Sözlər quruluşlarına görə üç cür olur:

1. Sadə sözlər: həmişə sabit qalıb, təklikdə anlamı (mə'na) olan, bir hərfi düşsə anlamını itirən sözlərə sadə sözlər deyilir.

   **Örnək: ana, bacı, divar.**

2. Düzəltmə sözlər: bir sadə söz və sözdüzəldən şəkilçidən ibarət olan sözlərə, düzəltmə sözlər deyilir.

   **Örnək: vətəndaş → vətən + daş, atlı → at+ lı.**

3. Mürəkkəb sözlər: iki vəya neçə kökdən düzələn sözlərə, mürəkkəb sözlər deyilir.

   **Örnək: istiot → isti + ot, əlüzyuyan → əl + üz + yuyan.**

"Sözün dəyişilməyən və müstəqil anlamı olan bölümünə, kök deyilir."

"Sözün dəyişən və müstəqil işlənməyən bölümünə, şəkilçi vəya ək deyilir."

## 11-ci Dərs: Düzəltmə Sözlər və Sözdüzəldici Şəkilçilər

Yeni söz düzəltmək üçün, köklərə artırılan şəkilçilərə, sözdüzəldici şəkilçilər deyilir.

**Örnək:**

**gözlük**

**gözlü**

**gözətçi**

**gözsüz**

Yuxarıdakı örnəklərdə "göz" sözünə çeşidli (müxtəlif) şəkilçilər qoşmaqla, cürbəcür sözlər yaranır.

## 12-ci Dərs: Mürəkkəb Sözlər və Onların Yazılışı

Mürəkkəb sözlər, aşağıdakı qaydalarla yaranır:

**1.** İki və hərdən üç sadə sözün birləşməsindən,

**örnək: Düz Küyü, qaraqaş, uzunburun**

**2.** Yaxınanlamlı iki sözün birləşməsindən,

**örnək: ev-eşik, üst-baş, çal-çağır**

**3.** Eyni sözlərin təkrarı ilə,

**örnək: üzbəüz, baş-başa**

**4.** Ziddanlamlı sözlərin birləşməsindən,

**örnək: yer-göy, gecə-gündüz**

## 13-cü Dərs: Şəkilçilərin Növləri

Azərbaycan Türkcəsində şəkilçilər görəvlərinə (vəzifə) görə iki yerə bölünür:

**1.** Sözdüzəldici şəkilçilər: bə'zi şəkilçilər, sözə artırılanda, o sözün anlamını dəyişib yeni-anlamlı söz yaradar. Belə şəkilçilərə, sözdüzəldici şəkilçilər deyilir.

**Örnək:**

**-çı → boyaq<u>çı</u>,**

**-suz → su<u>suz</u>,**

**-li → yemə<u>li</u>,**

**-lıq → ağa<u>lıq</u>**

**2.** Sözdəyişdirici şəkilçilər: bə'zi şəkilçilər sözə artırılanda, onun yalnız zahirdəki şəklini dəyişib, anlamında heç bir dəyişiklik yaratmır. Belə şəkilçilərə, sözdəyişdirici şəkilçilər deyilir.

**Örnək:**

**-da → dağ<u>da</u>,**

**-dən → Küyü<u>dən</u>,**

**-a → yoldaş<u>a</u>,**

**-yə → dərə<u>yə</u>**

## 14-cü Dərs: Şəkilçilərin Yazılışı

**1.** Sözlərin son səslisinin ancaq qalın vəya incəliyinə bağlı olan şəkilçilər, iki şəkilli olur. Belə şəkilçilərin qalınlarında *"a"* incələrində isə *"ə"* səslisi işlənir. Örnək:

- **a.** qalın sözdəyişdirici şəkilçilər: **-lar → qapılar, -da → dağda, -dan → uşaqdan**
- **b.** incə sözdəyişdirici şəkilçilər: **-lər → evlər, -də → gündə, -dən → çiçəkdən**
- **c.** qalın sözdüzəldici şəkilçilər: **-ma → qalma, -an → yanan**
- **ç.** incə sözdüzəldici şəkilçilər: **-mə → gülmə, -ən → sevinən**

**2.** Sözün son səslisinin qalın vəya incəliyi, ha belə dodaqlanan vəya dodaqlanmayan olmasına bağlı olan şəkilçilər dördçeşidli olur. Belə şəkilçilərin qalınlarında, səsli uyğunluğu qanununa görə *"ı"* vəya *"u"*, incələrində isə *"i"* vəya *"ü"* işlənir, örnək:

- **a.** qalın sözdəyişidirici şəkilçilər: **-ı → qarpızı, -ın → qarpızın, -u → duzu, -un → duzun**
- **b.** incə sözdəyişdirici şəkilçilər: **-i → dili, -in → dilin, -ü → günü, -ün → günün**
- **c.** qalın sözdüzəldici şəkilçilər: **-lıq → yaylıq, -sız → paltarsız, -luq → qonşuluq, -suz → odunsuz**
- **ç.** incə sözdüzəldici şəkilçilər: **-lik → kölgəlik, - siz → evsiz, -lük → gözlük, -süz → gülsüz**

## 15-ci Dərs: Nitq Bölümləri

Hər dilin sözləri çeşidli bölümlərə bölünür. Onlara nitq bölümləri deyilir.

Azərbaycan Türkcəsində on cür nitq bölümü vardır. Bunlardan bə'zisinin mətndən eşikdə, müstəqil anlamı olur. Bunlara əsas nitq bölümləri deyilir. Azərbaycan Türkcəsində yeddi cür əsas nitq bölümü var:

1. **isim:** ana, vətən
2. **sifət:** ağ, böyük
3. **say:** bir, iki
4. **əvəzlik:** mən, sən
5. **eyləm (fe'l):** yazdım, gedirəm
6. **zərf:** yavaş, diqqətlə
7. **nida:** ax! hoy!

Mətndən eşikdə müstəqil anlamı olmayan nitq bölümlərinə, köməkçi nitq bölümləri deyilir.

1. **qoşma:** sarı, -dək, kimi, görə
2. **bağlayıcı:** həm, da, yoxsa, ancaq
3. **ədat:** ki, -mi, bəs, ha

## 16-cı Dərs: İsim (Ad)

Şeylər və kimsələrin adını bildirən sözlərə, isim deyilir:

1. **özəl (xüsusi) isimlər**: varlığı tək olan şeyləri bildirən sözlərə deyilir, örnək: *Savalan, Babək, Təbriz*.
2. **genəl (ümumi) isimlər**: cinsibir şeylərin ümumi adı olan sözlərə deyilir, örnək: *adam, kitab*.
3. **mücərrəd isimlər**: maddə xaricində olan və əllənmə- yən şeylərin adına deyilir, örnək: *yaxşılıq, qoçaqlıq*.
4. **mücərrəd olmayan isimlər**: canlılar və cansızların adına deyilir, örnək: *su, quş*.
5. **təklik isimlər**: isimlərin çoxu, sonunda toplu (cəm) əlaməti olmayanda, tək bir şeyi bildirir. Belə isimlərə, təklik isimlər deyilir, örnək: *ata, ev*.
6. **çoxluq isimlər**: sonunda toplu əlaməti olmayanda da çoxluğu bildirən adlara deyilir, örnək: *el, ulus, sürü*.
7. **isimlərin toplusu**: Azərbaycan Türkcəsində isimlərin toplu əlaməti, ikiçeşidli *"-lar, -lər"*-dən ibarətdir. İsmin son səslisi qalın olsa *"-lar"*, incə olsa *"-lər"*-dən yararlanarlar, örnək: dost → dostlar, qarpız → qarpızlar, çöl → çöllər, gəmi → gəmilər.

## 17-ci Dərs: İsimlərin Quruluşca Növləri

1. Sadə isimlər: bir kökdən ibarət olan və bir hərfi düşəndə anlamını itirən isimlərə, sadə isimlər deyilir, örnək: *çörək, at*.
2. Düzəltmə isimlər: bir kök və bir vəya bir neçə södüzəldici şəkilçidən əmələ gələn isimlərə, düzəltmə isimlər deyilir.

   Çağdaş Azərbaycan Türkcəsinin standard şivəsində var olan düzəltmə isimlər:

   i. Türkcə şəkilçilərlə düzələnlər:
      **-lıq, -lik, -luq, -lük**: *dağlıq, çərçilik, ucuzluq, düzlük*
      **-ça, -çə**: *qazança, dəftərçə*
      **-laq**: *duzlaq, çaylaq*
      **-çı, -çi, -çu, -çü**: *yazıçı, çörəkçi, odunçu, üzümçü*
      **-lı, -li, -lu, -lü**: *dadlı, evli, duzlu, sözlü*
      **-daş**: *yoldaş, əməkdaş, vətəndaş*
      **-cıq, -cik, -cuq, -cük, -cığaz, -ciyəz**: *anacıq, evcik, yavrucuq, gözcük, qızcığaz, nənəciyəz*

   ii. Fars və Ərəb dillərindən alınmış şəkilçilərlə həmən dillərdən alınmış sözlərdən düzələn düzəltmə isimlər:
      **-iyyət**: *ziddiyyət, şəxsiyyət*
      **-yat, -at**: *ədəbiyyat, tə'limat*
      **-iyyə**: *səviyyə, fərziyyə*
      **-i, -vi**: *Xaqani, Gəncəvi*
      **-dar**: *eldar, havadar*

**iii.** Avropa dillərindən alınmış şəkilçilərlə həmən dillərdən alınmış sözlərdən yaranan düzəltmə isimlər:

**-izm**: *idealizm* **-ist**: *maşınist* **-ik**: *akademik, biolijik*

**iv.** Türkcə şəkilçilərlə həmən dilin eyləmlərindən düzələn isimlər:

**-ıq, -ik, -uq, -ük**: *qatıq, bilik, qoruq, hörük*

**-ış, -iş, -uş, -üş**: *qaçış, gəliş, uçuş, görüş*

**-ma, -mə**: *vuruşma, süzmə*

**-aq, -ək, -q, -k**: *yataq, sürək, daraq, ələk*

**-caq, -cək**: *sancaq, yellən cək*

**-ım, -im, -um, -üm**: *yığım, içim, udum, ölüm*

**-qa, -gə**: *qovurqa, süpürgə*

**-ar, -ər**: *açar, gülər*

**-tı, -ti, -tu, -tü**: *qışqırtı, göyərti, gurultu, üzüntü*

**-qın, -kin, -qun, -gün, -ğın, -ğun**: *basqın, kəskin, tutqun, süzgün, dalğın, vurğun*

**-qı, -ki, -qu, -gü, -ğı, -ğu**: *asqı, seçki, pusqu, bölgü, çalğı, sorğu*

**-ın, -in**: *axın, biçin*

**-ı, -i, -u, -ü**: *yazı, çəki, pozu, ölçü*

**-ıcı, -ici, -ucu, -ücü**: *satıcı, bilici, sorucu, bölücü*

**-ınc, -inc, -unc, -ünc**: *qaxınc, sevinc, qorxunc, gülünc*

**-acaq, -əcək**: *yanacaq, siləcək*

**-cə**: *düşüncə*

**-gəc**: *süzgəc*
**-ac,-əc**: *tıxac, döyəc*
**-ir**: *gəlir*
**-ıc**: *ayrıc*
**-ıntı, -inti, -untu, -üntü**: *qazıntı, əzinti, ovuntu, çöküntü*
**-maz, -məz**: *solmaz, sönməz*

**3.** Mürəkkəb isimlər: iki vəya neçə müstəqil sözdən əmələ gələn sözlərə, mürəkkəb isimlər deyilir.

- **i.** iki müstəqil sözdən yarananlar: *Böyükağa, hacıleylək*
- **ii.** bir sözün təkrarından əmələ gələnlər: *qala-qala, deyə-deyə*
- **iii.** anlamca zidd olan iki sözün birləşməsindən əmələ gələnlər: *var-yox, az-çox*
- **iv.** bir anlamlı və bir anlamsız sözün birləşməsindən əmələ gələnlər: *adam-madam, qız-mız*

## 18-ci Dərs: İsimlərdə Bağlılıq

Bir şeyin bir şəxsə bağlı vəya aid olduğunu bidirmək üçün, o şeyin isminin axırına müəyyən şəkilçilər artırarlar.

**1.** Birinci tək şəxsə bağlı olanda:

- **i.** bağlı olan tək şey səssiz ilə bitsə, bağlılıq əlaməti dördçeşidli *"-ım, -im, -um, -üm"* olar, **örnək:** *kitabım, Təbrizim, duzum, gülüm*.
- **ii.** bağlı olan tək şey səsli ilə qurtarsa, yuxarıdakı şəkilçilərin ilkin səslisi düşər, **örnək:** *anam, nənəm, quzum, sürüm*.
- **iii.** bağlı olan şey toplu olsa, *"-lar, -lər"* toplu əlaməti artırılıb, ondan sonra bağlılıq əlaməti *"-ım, -im"* gələr, **örnək:** *quzularım, güllərim.*

**2.** Birinci toplu şəxsə bağlı olanda:

- **i.** bağlı olan tək şəy səssizlə bitsə, bağlılıq əlaməti dördçeşidli *"-ımız, -imiz, -umuz, -ümüz"* olar, **örnək:** *bağımız, evimiz, yurdumuz, gölümüz*.
- **ii.** bağlı olan tək şey səsli ilə qurtarsa, yuxarıdakı şəkilçilərin ilkin səslisi düşər, **örnək:** *anamız, nənəmiz, quzumuz, güzgümüz*.
- **iii.** bağlı olan şey toplu olsa, *"-lar, -lər"* toplu əlaməti artırılıb, ondan sonra bağlılıq əlamati *"-ımız,-imiz"* gələr, **örnək:** *qoyunlarımız, güzgülərimiz*.

**3.** İkinci tək şəxsə bağlı olanda:

- **i.** bağlı olan tək şey səssiz ilə bitsə, bağlılıq əlaməti dördçeşidli *"-ın, -in, -un, -ün"* olar, örnək: *kitabın, evin, yurdun, gülün*.
- **ii.** bağlı olan tək şey səsli ilə qurtarsa, yuxarıdakı şəkilçilərin ilkin səslisi düşər, örnk: *anan, nənən, quzun, güzgün*.
- **iii.** bağlı olan şey toplu olsa, *"-lar, -lər"* toplu əlaməti artırılıb, ondan sonra bağlılıq əlaməti *"-ın, -in"* gələr, örnək: *kitabların, evlərin, quzuların, güllərin*.

**4.** İkinci toplu şəxsə bağlı olanda:

- **i.** bağlı olan tək şey səssiz ilə bitsə, bağlılıq əlaməti dördçeşidli *"-ınız = -ız, -iniz = -iz, -unuz = -uz, -ünüz = -üz"* olar, örnək: *kitabınız = kitabız, eviniz = eviz, yurdunuz = yurduz, sözünüz = sözüz*.
- **ii.** bağlı olan tək şey səsli ilə qurtarsa, yuxarıdakı şəkilçilərin ilkin səslisi düşər, örnək: *ananız = anaz, nənəniz = nənəz, quzunuz = quzuz, güzgünüz = güzgüz*.
- **iii.** bağlı olan şey toplu olsa, *"-lar, -lər"* toplu əlaməti artırılıb, ondan sonra bağlılıq əlaməti *"-ınız = -ız, -iniz = -iz"* gələr, örnək: *kitablarınız = kitablarız, gülləriniz = güllərız*.

**5.** Üçüncü tək şəxsə bağlı olanda:

- **i.** bağlı olan tək şey səssiz ilə bitsə, bağlılıq əlaməti dördçeşidli *"-ı, -i, -u, -ü"* olar, örnək: *kitabı, evi, yurdu, sözü*.

ii. bağlı olan tək şey səsli ilə qurstarsa, *"-s-"* hərfi araya gələr, örnək: *ana<u>sı</u>, nənə<u>si</u>, quzu<u>su</u>, güzgü<u>sü</u>*.

iii. bağlı olan şey toplu olsa, *"-lar, -lər"* toplu əlaməti artırılıb, ondan sonra bağlılıq əlamati *"-ı, -i"* gələr, örnək: *kitab<u>ları</u>, ev<u>ləri</u>, quzu<u>ları</u>, gül<u>ləri</u>*.

**6.** Üçüncü toplu şəxsə bağlı olanda:

**i.** bağlı olan tək şey səssiz ilə bitsə, bağlılıq əlaməti ikiçeşidli *"-ları, -ləri"* olar, örnək: *kitab<u>ları</u>, qələm<u>ləri</u>, quzu<u>ları</u>, güzgü<u>ləri</u>*.

**ii.** bağlı olan tək şey səsli ilə qurtarsa, bağlılıq forması "i."-dəki kimidir.

## 19-cu Dərs: İsmin Halları

İsimlərin cümlə içində çeşidli şəkillərə düşməsinə, ismin halları deyilir:

**1.** Adlıq hal: bu, ismin birinci şəkli və adıdır və şəkilçisi olmaz. Bu hal *"kim?"* vəya *"nə?"* sorğularından birisinə cavab verir, **örnək:** *ana "Kim?", kitab "Nə?"*

**2.** Yiyəlik hal: bu hal iki şey arasında sahiblik, yiyəlik məzmununu bildirir. Bu halda olan isimlər *"kimin?"* vəya *"nəyin?"* sorğularından birisinə cavab verir, **örnək:** *Füzulinin qəzəli "Kimin qəzəli?"*

- Bu halın **şəkilçiləri** aşağıdakılardan ibarətdir:
  - **i.** isim səssiz hərflə bitsə, sözün son səslisi ilə uyğun, dördçeşidli *"-ın, -in, -un, -ün"* işlənir, **örnək:** *Azərbaycanın, elin, dostun, gülün*.
  - **ii.** isim səsli hərflə bitsə, şəkilçi ilə ismin arasına bir *"-n-"* hərfi artırılır, **örnək:** *atanın, dirinin, quzunun, özünün*.

**3.** Yönlük hal: bu hal iş və hərəkətin yönünü (cəhət) vəya hədəfini bildirir. Özü də *"hara?"* vəya *"nəyə?"* sorğularından birisinə cavab verir, **örnək:** *Bağa gedirəm. "Hara gedirəm?", Kitaba baxıram. "Nəyə baxıram?"*

- **şəkilçilər**:
  - **i.** isim səssiz hərflə bitsə, sözün son səslisi ilə uyğun, qalınlarda *"-a"*, incələrdə isə *"-ə"* işlənər, **örnək:** *ağaca , evə*.

ii. isim səsli hərflə bitsə, şəkilçi ilə ismin arasına bir *"-y-"* hərfi artırılır, **örnək:** *anaya, nənəyə, küçəyə*.

4. Tə'sirlik hal: bu hal eyləmin (fe'l) tə'siri üstünə düşən isimləri göstərir. Bu halda işlənən isimlər *"kimi?"* vəya *"nəyi?"* sorğularından birisinə cavab verir, örnək: *Müəllimi gördüm. "Kimi gördüm?", Şe'ri oxudum. "Nəyi oxudum?"*

➢ **şəkilçilər:**

i. isim səssiz hərflə bitsə, sözün son səslisi ilə uyğun, dördçeşidli *"-ı, -i, -u, -ü"* işlənər. **Örnək:** *otağı, vətəni, duzu, gözü*.

ii. isim səsli hərflə bitsə, şəkilçi ilə ismin arasına *"-n-"* hərfi artırılır. **Örnək:** *ananı, bəbəni, quzunu, düyünü*.

5. Yerlik hal: bu halda, isim işin vəya hərəkətin baş verdiyi yeri bildirir. Bu haldakı isimlər, *"kimdə?", "nədə?"* vəya *"harada?"* sorğularından birisinə cavab verir, **örnək:** *Kitab Aydındadır. "Kitab kimdədidr?"*

➢ **şəkilçilər:**

i. ismin son səslisi qalın olsa, *"-da"* şəkilçisi ismin sonuna artırılır. **Örnək:** *anada, zurdda, otaqlarda*.

ii. ismin son səslisi incə olsa, *"-də"* şəkilçisi ismin sonuna artırılır. **Örnək:** *evdə, çöldə , evlərdə*.

6. Çıxışlıq hal: bu hal iş vəya hərəkətin çıxdığı nöqtəni bildirir. İsimlər bu halda, *"kimdən?"*, "*nədən?"* vəya *"haradan?"* sorğularından birisinə cavab verir,

**örnək:** *Anar məktəbdən gəldi.* *"Anar haradan gəldi?"*

- **şəkilçilər:**

  i. ismin son səslisi qalın olsa, *"-dan"* şəkilçisi ismin sonuna artırılır, **örnək:** *anadan, bağdan, babalardan*.

  ii. ii. ismin son səslisi incə olsa, *"-dən"* şəkilçisi ismin sonuna artırılır, **örnək:** *evdən, səndən , körpələrdən*.

- isimlər həm bağlılıq, həm də hal şəkilçisi qəbul edəndə, ilkcə bağlılıq, sonra isə hal şəkilçisi yazılar, örnək: *qardaşıma, qardaşımızda, ...*

## 20-ci Dərs: Bağlılıq və Hal Şəkilçiləri Birlikdə

"isim + bağlılıq + hal şəkilçisi"

**1.** Qalın dodaqlananlarda: ikinci tək şəxsə aid olanda →

  i. **adlıq**: səssizlə bitəndə → *odunun,* səsli ilə bitəndə → *quyun*

  ii. **yiyəlik**: səssizlə bitəndə → *odununun*, səsli ilə bitəndə → *quyunun*

  iii. **yönlük**: səssizlə bitəndə → *odununa*, səsli ilə bitəndə → *quyuna*

  iv. **tə'sirlik**: səssizlə bitəndə → *odununu*, səsli ilə bitəndə → *quyunu*

  v. **yerlik**: səssizlə bitəndə → *odununda*, səsli ilə bitəndə → *quyunda*

  vi. **çıxışlıq**: səssizlə bitəndə → *odunundan*, səsli ilə bitəndə → *quyundan*

**2.** Qalın və incə dodaqlanmayanlarda: ikinci tək şəxsə aid olanda →

  i. **adlıq**: səssizlə bitəndə → *qardaşın*, səsli ilə bitəndə → *bibin*

  ii. **yiyəlik**: səssizlə bitəndə → *qardaşının*, səsli ilə bitəndə → *bibinin*

  iii. **yönlük**: səssizlə bitəndə → *qardaşına*, səsli ilə bitəndə → *bibinə*

  iv. **tə'sirlik**: səssizlə bitəndə → *qardaşını*, səsli ilə bitəndə → *bibini*

v. **yerlik**: səssizlə bitəndə → *qardaşında*, səsli ilə bitəndə → *bibində*

vi. **çıxışlıq**: səssizlə bitəndə → *qardaşından*, səsli ilə bitəndə → *bibindən*

**3.** Səsli ilə bitənlər (qalın dodaqlanmayan və incə dodaq-lananlar ): ikinci tək şəxsə aid →

i. **adlıq**: qalın səsli ilə bitəndə → *anan*, incə səsli ilə bitəndə → *hülün*

ii. **yiyəlik**: qalın səsli ilə bitəndə → *ananın*, incə səsli ilə bitəndə → *hülünün*

iii. **yönlük**: qalın səsli ilə bitəndə → *anana*, incə səsli ilə bitəndə → *hülünə*

iv. **tə'sirlik**: qalın səsli ilə bitəndə → *ananı*, incə səsli ilə bitəndə → *hülünü*

v. **yerlik**: -qalın səsli ilə bitəndə → *ananda*, -incə səsli ilə bitəndə → *hülündə*.

vi. **çıxışlıq**: qalın səsli ilə bitəndə → *anandan*, incə səsli ilə bitəndə → *hülündən*

➢ Bu iki şəkilçi isimlərə artırılanda, gördüyümüz kimi, standard şivə normaları ilə, ikinci tək şəxsdə yiyəlik, yönlük və tə'sirlik halında bir sıra dolaşıqlıqlar irəli gəlir. Bu dolaşıqlıqları aradan qaldırmaq üçün, Güney Azərbaycanda, çox ləhcələrdə, həmən üç *"-ın"* bağlılıq şəkilçisinin *"-n-"* hərfini *"-v-"* hərfinə çevirirlər, örnək:

i. **yiyəlik**: *odununun → odunuvun, quyunun → quyuvun, qardaşının → qardaşıvın, ananın → anavın, hülünün → hülüvün*

ii. **yönlük**: *odununa → odunuva, quyuna → quyuva, qardaşına → qadaşıva, bibinə → bibivə, anana → anava, hülünə → hülüvə*

iii. **tə'sirlik**: *odununu → odunuvu, quyunu → quyuvu, qardaşını → qardaşıvı, bibini → bibivi, ananı → anavı, hülünü → hülüvü*

## 21-ci Dərs: İsimlərdə Xəbər Əlaməti

Xəbər şəkilçiləri bunlardır:

**1.** Birinci tək şəxs:

  **i.** söz səssizlə bitsə, qalın səslilərdə *"-am"*, incələrdə isə *"-əm"* olar, **örnək:** *qoçağam, gəncəm*.

  **ii.** söz səsli ilə bitsə, yuxarıdakı şəkilçilər işlənər, amma iki səsli arasında *"-y-"* hərfi gələr, **örnək:** *atayam, nənəyəm*.

**2.** Birinci toplu şəxs:

  **i.** söz səssizlə bitsə, dördçeşidli *"-ıq, -ik, -uq, -ük"* gələr, **örnək:** *insanıq, gəncik, qohumuq, böyügük*.

  **ii.** söz səsli ilə bitsə, iki səsli arasında *"-y-"* hərfi gələr, **örnək:** *bacıyıq, körpəyik, odunçuyuq, sürücüyük*.

**3.** İkinci tək şəxs: həm səsli, həm də səssiz hərflə bitən sözlərin son səslisi qalın olsa *"-san"*, incə olsa *"-sən"* işlənər, **örnək:** *qoçaqsan, babasan, nənəsən, böyüksən*.

**4.** İkinci toplu şəxs: sözün son səslisiylə ilgili, dördçeşidli *"-sınız = -sız, -siniz = -siz, -sunuz = -suz, -sünüz = -süz"* işlədilir, örnək: *qoçaqsınız = qoçaqsız, devsiniz = devsiz, qohumsunuz = qohumsuz, düzsünüz = düzsüz*.

**5.** Üçüncü tək şəxs: sözün son səslisiylə ilgili, dördçeşidli *"-dır, -dir, -dur, -dür"* gələr, örnək: *anadır, evdir, ovçudur, üzümdür*.

**6.** Üçüncü toplu şəxs: 5-cidəki şəkilçilərdən sonra, qalınlarda *"-lar"*, incələrdə isə *"-lər"* artırılır, örnək: *qoçaqdırlar, nənədirlər, oğrudurlar, düzdürlər*.

- Xəbər əlamətinin danması: bu əlamət *"deyil = dəgil"*-dən ibarətdir. Şəkilçilər bu əlamətin sonuna artırılır, **örnək:**
  - *deyiləm, deyilsən, deyildir*
  - *deyillik, deyilsiz, deyillər*.

## 22-ci Dərs: Sifət

İsimlərin necəliyini bildirən sözlərə, sifət deyilir.

Azərbaycan Türkcəsində:

**1.** sifət isimdən qabaq gələr: *gözəl qız, qırmızı alma*.

**2.** sifət xəbər olsa, isimdən sonra gələr: *vətən əzizdir*.

➢ Sifətlərin quruluşca növləri:

**1.** Sadə sifətlər: bir kökdən ibarət olar.

- **i.** **rəng**: *ağ, qara*
- **ii.** **nəcürlük**: *yaxşı, pis*
- **iii.** **ölçü və həcm**: *uca, qısa*
- **iv.** **dad**: *şirin, acı*
- **v.** **üzündəki əlamət**: *şil, qoca*
- **vi.** **istilik və ağırlıq**: *ağır, isti*

**2.** Düzəltmə sifətlər: bir söz və bir şəkilçidən düzəlir.

- **i.** **isimlik sifətlər**: bir isim + şəkilçi

**-lı, -li, -lu, -lü**: *dadlı, bilgili, yuxulu,dözümlü*

**-sız, -siz, -suz, -süz**: *adsız, evsiz, yolsuz, tüksüz*

**-çı, -çi, -çu, -çü**: *qaçaqçı, dəmirçi, odunçu, döyüşçü*

**-lıq, -lik, -luq, -lük**: *dağlıq, həftəlik, donluq, günlük*

**-kı, -ki, -kü**: *axşamkı, səhərki, bugünkü*

**-kı, -ki**: *atamdakı, evdəki*

**-cıl, -cil, -cul, -cül**: *qabaqcıl, işcil, qohumcul, ölümcül*

ii. **eyləmlik (fe'li) sifətlər**:

- **birinci dəstə**: adlıq isim → eyləm kökü +*"an"/"ən"*

  **Örnək:** *qanan, görən, yazılmayan, anlaşılmayan*.

- **ikinci dəstə**:

  **-mış, -miş, -muş, -müş**: *qocalmış, gəlmiş, qurumuş, görmüş*

  **-ar, -ər**: *axar, gülər*

  **-acaq, -əcək (-yacaq, -yəcək)**: *olacaq, gələcək, yaşayacaq, ələyəcək*

- **üçüncü dəstə**:

  **-malı, -məli**: *oxumalı, görməli*

  **-ası, -əsi (-yası, -yəsi)**: *yazası, oxuyası, görəsi, bürüyəsi*.

- **dördüncü dəstə**:

  *alınma, gəlmə*

- **beşinci dəstsə**:
  **-ağan, -əyən**: *qapağan, hürəyən*
  **-qan, -kən**: *çalışqan, döyüşkən*
  **-aq, -ək**: *qorxaq, işlək*
  **-ğın (-ğın, -ğun, -gin, -gün) və -qın (-qın, -qun, -kin, -kün)**:

**söz cingiltili səssizlə bitsə, "*-ğın*"-gillər artırılar**: *azğın, solğun, əzgin, düzgün*
**söz kar səssizlə bitsə, "*-qın*"-gillər artırılar**: *satqın, tutqun, kəskin, küskün*
**-ıcı, -ici, -ucu, -ücü, -yıcı, -yici, -yucu, -yücü**: *alıcı, keçici, yorucu, sürücü, partlayıcı, ələyici, qoruyucu, bürüyücü*
**-ıq, -ik, -uq, -ük**: *batıq, kəsik, uçuq, sönük*
**-caq, -cək**: *utancaq, sevincək*
**-ınc, -inc, -unc, -ünc**: *qorxunc, gülünc*
**-c**: *qısqanc, iyrənc*
**-ım, -im, -um, -üm**: *atım, içim, tutum, bölüm*
**-dıq, -dik, -duq, -dük**: *aldığım, gəzdiyim, olduğum, gördüyün*
**-ə**: *kəsə*

3. **Mürəkkəb sifətlər**: iki sözün birləşməsindən düzəlir.

   i. Türkcə sözlərlə əmələ gələnlər:
      a. **iki sifətin təkrarından düzələnlər**: *yaşıl-yaşıl*
      b. **iki isimlik sifətdən düzələnlər**: *güllü-çiçəkli, bağlı-bağçalı*
      c. **bir sadə sifət və bir isimlik sifətdən düzələnlər**: *ucaboylu, istiqanlı*
      ç. **bir sadə sifət və bir isimdən düzələnlər**: *dikbaş, göygöz*

d. **bir eyləmlik sifət və bir isimdən düzələnlər**: *açıqgöz*
e. **bağlılıq şəkilçisi olan bir isimlə bir sifətdən düzələnlər**: *gözütox, dilişirin*
ə. **bir bağlılıq şəkilçisi olan isimlə isimdən düzələn sifətlə yarananlar**: *üstü-örtülü, gözüqanlı*
f. **bir bağlılıq şəkilçisi olan isimlə bir eyləmlik sifətdən düzələnlər**: *alnı-açıq, yolunu-azmış*
g. **mürəkkəb eyləmlərdən düzələnlər**: *tə'yid olunan*
ğ. **"-dan, -dən" şəkilçili bir isim və bir sifətdən düzələnlər**: *daşdan-yumşaq, dildən-iti*
h. **bir say və bir sadə isimdən düzələnlər**: *beşbucaq, dördqapılı*

**ii.** Ərəb və Fars dillərindən alınmış mürəkkəb sifətlər:

a. **bir sifət və bir isimdən düzələnlər**: *xoşbəxt, bədtinət*
b. **bir say və bir isimdən düzələnlər**: *yekrəng*
c. **bir isim vəya əsl sifət və bir eyləmlik sifətdən düzələnlər**: *quşbaz, oyunbaz*

## 23-cü Dərs: Sifətlərin Dərəcəsi

Çağdaş Azərbaycan Türkcəsində sifətin altı dərəcəsi vardır:

**1.** Adi dərəcə: bu dərəcədə olan sifətlər, şeylərin əlamətini adi şəkildə bildirir. **Örnək**: *qırmızı, çalışqan, yaxşı*.

**2.** Qarşılaşdırma (müqayisə) dərəcəsi: bu dərəcə iki vəya çox şeydə olan eyni keyfiyyəti qarşılaşdırır. Bu dərəcənin əlaməti üçdür:

   **i.** **-raq, -rək**: *yaxşıraq, pisrək*

   **ii.** **-dan, -dən**: bu şəkilçilər sifətlərə artırılmır, bəlkə iki isimdən, keyfiyyəti az olana əlavə olur: *Yuxu baldan şirindir*.

   ***iii.*** **daha**: *daha böyük, daha gözəl*

**3.** Üstünlük dərəcəsi: bu dərəcə ilə, bir keyfiyyət, adi dərəcədən üstün göstərilir. Bu dərəcənin əlamətləri *"ən, çox, lap, olduqca"*-dan ibarətdir ki, sifətin başına artırılır: *ən gözəl, çox böyük, lap pis, olduqca yaxşı*.

**4.** Şiddətləndirmə dərəcəsi: bu dərəcə, sifətin tə'yinlik dərəcəsini şiddətləndirir. Bu formada, sifətin ilk hecasının səslisindən sonra *" –m-, -p-, -s-, -r-"* səssizləri-ndən birini gətirib, sonra sifətin özü bütöv şəkildə gəlir: *bomboş, sapsarı, qıpqırmızı, dupduru*.

**5.** Kiçiltmə dərəcəsi: bu dərəcə, şeylərdəki əlamət, sifət və keyfiyyətin adi dərəcədən az olduğunu bildirir. Bu dərəcənin şəkilçiləri aşağıdakılardır:

i. **-ımtıl, -imtil, -umtul, -ümtül**: *sarımtıl, mavimtil, bozumtul, göyümtül*

ii. **-sov**: *uzunsov, dəlisov*

iii. *-təhər*: *qırmızı təhər, uzun təhər*

iv. **-mtıraq**: *qırmızımtıraq, ağımtıraq*

v. **-ala**: *ala qaranlıq, ala yarımçıq*

vi. **-şın**: *ağşın, qaraşın*

vii. **açıq**: *açıq qara, açıq sarı*

**6.** Çoxaltma dərəcəsi: sifətin bu dərəcəsində keyfiyyət, əlamət və sifətin miqdarı, adi dərəcəyə nisbət ya artır ya da azalır. Bu dərəcənin əlaməti *"-ca, -cə"* şəkilçisidir: *yaxşıca, qaraca*.

## 24-cü Dərs: Say

Şeylərin miqdarını, sayını bildirən sözlərə say deyilir. Azərbaycan Türkcəsində dörd cür say vardır:

**1.** Miqdar sayları:

   **i.** sadə saylar: birdən ona qədər (1-10), onluqlar, yüz, min, milyon və milyard sayları sadədir.

   **ii.** mürəkkəb saylar: iki və daha artıq sözlə ifadə olunan saylara, mürəkkəb say deyilir, **örnək**: *on beş, yüz doqquz*.

**2.** Sıra sayları: bu saylar, şeylərin sırasını bildirir. Bu saylar, miqdar saylarına dördçeşidli *"-ıncı, -inci, -uncu, -üncü"* şəkilçilərini artırmaqla düzəlir. **Örnək**: *altıncı, ikinci, doqquzuncu, üçüncü*.

**3.** Kəsr sayları: bu saylar bütöv bir sayın müəyyən miqdarını bildirir. **Örnək**: *yeddi tam və ondan üç (7.3)*.

**4.** Qeyri-müəyyən saylar: bu saylar tam qeyri-müəyyən bir miqdarı nəzərdə canladırır. Bu saylar *"az, çox, xeyli, bir qədər, bu qədər,* **...***"* kimi sözlərdən ibarətdir.

## 25-ci Dərs: Əvəzliklər

Mətndə isim ikinci dəfə gələndə, onun yerində oturan sözlərə əvəzlik (zəmir) deyilir. Görəv (vəzifə) əsasında əvəzliklərin aşağıdakı növləri vardır:

**1.** Şəxs əvəzlikləri: bu əvəzliklər birinci, ikinci, üçüncü (tək, toplu) şəxsləri bildirir. Bu əvəzliklər içsöz (məz -mun) və anlamca üç cürdür:

- **i.** əsas şəxs əvəzlikləri: *mən, sən, o (tək), biz, siz, onlar (toplu)*
- **ii.** yiyəlik şəxs əvəzlikləri: *mənim, sənin, onun (tək), bizim, sizin, onların (toplu)*

  Bu əvəzliklərin ikinci növü də vardır: *mənimki, səninki, onunku (tək), bizimki, sizinki, onlarınkı (toplu)*
- **iii.** qayıdış şəxs əvəzlikləri: içsözü şəxsin özünə qaytaran əvəzliklərə, qayıdış əvəzlikləri deyilir. İki cürdür:
  - **a.** *"öz"* ilə bağlılıq şəkilçilərindən düzələnlər: *özüm, özün, özü (tək), özümüz, özünüz (= özüz), özləri (toplu)*
  - **b.** *"bilə"* sözünə bağlılıq şəkilçilərini artırmaqla düzələnlər: *biləm, bilən, biləsi (tək), biləmiz, biləniz (= biləz), bilələri*

**2.** İşarə əvəzlikləri: bu əvəzliklərin ən çox işlənənləri bunlardır: *bu, o, belə, elə, həmin, haman*.

**3.** Sorğu əvəzlikləri: Azərbaycan Türkcəsində sorğu əvəzlikləri bunlardır: *kim, nə, hara, hansı, haçan, neçə, necə, nə vaxt, nə zaman, hanı, hayan*.

**4.** Qeyri-müəyyən əvəzliklər: qeyri-müəyyən şəxslər və ya şeyləri bildirmək üçün qeyri-müəyyən əvəzliklər işlənər. Bu əvəzliklərin növləri aşağıdakılardır:

   **i.** *kimi, kimisi, kimsə, kim isə, hər kəs, heç kəs, ...*

   **ii.** *biri, birisi, hər biri, heç biri, heç bir, hər bir, ...*

   **iii.** *nə isə, heç nə, hər nə, nəyinsə, nəyəsə, ...*

   **iv.** *heç kəs, hər kəs, bir kəs, hər bir kəs, heç bir kəs, hər zad, heç zad, bir zad, hər bir zad, heç bir zad, filankəs, ...*

   **v.** *neçəsi, bə'zi, bə'zisi, bə'zilǝri, hamı, hamısı, ...*

**5.** Tə'yin əvəzlikləri: bu əvəzliklər, cümlədə isimdən qabaq gələr və onları tə'yin edər. Onların ən çox işlənənləri bunlardır: *hər, bütün, eyni, filan, ...*

## 26-cı Dərs: Eyləm

İş, durum və hərəkət bildirən sözlərə, eyləm (fe'l) deyilir. Azərbaycan Türkcəsi, eyləm baxımından, dünyanın ən görkəmli dillərindəndir.

- Eylәmlәrin quruluşca növlәri:

1. Sadə eyləmlər: bir kökdən ibarət olan və bir hərfi dəyişdikdə, anlamı itən vəya dəyişən eyləmlərə deyilir. **Örnək**: *get, gəl, bil, qal*.

2. Düzəltmə eyləmlər: çeşidli sözlərə müəyyən şəkilçilər artırmaqla düzələn eyləmlərə deyilir. Bu eyləmləri yaradan şəkilçilər bunlardır:
   **-la, -lə**: *duzla, işlə, qarala, cütlə, ikilə, yarıla*
   **-laş, -ləş**: *ayaqlaş, birləş, şirinləş, sözləş, hazırlaş*
   **-lan, -lən**: *yollan, güclən, evlən, süslən, xumarlan, dillən*
   **-al, -əl, -l**: *boşal, düzəl, çoxal, saral, dincəl, durul*
   **-ar, -ər**: *otar, göyər, yaşar, qızar*
   **-a, -ə**: *yaşa, boşa, ələ, dilə*
   **-ı, -i, -u, -ü**: *acı, bərki, turşu, təngi*
   **-var**: *suvar*
   **-sa**: *susa*
   **-imsə, -ümsə**: *mənimsə, qəribsə, gülümsə, özümsə*
   **-ılda, -ildə, -ulda, -üldə**: *pıçılda, cingildə, xorulda, cürüldə*
   **-ıq, -ıx, -ik, -uq, -ux**: *darıx, gecik, yolux, karıx*

**3.** Mürəkkəb eyləmlər: bir isimlə bir eyləmdən əmələ gələn eyləmlərə deyilir. Azərbaycan Türkcəsində dörd növ mürəkkəb eyləm vardır:

**i.** idi, imiş (-di, -miş): *yazmış idim, gəlmiş imiş, gələsi idi, getmişdi*

**ii.** ol, et, elə: *hazır ol, əmr et, rədd elə*

**iii.** bil: *yaza bildim, yaza bilərmişəm*

**iv.** isim + eyləm:

**a.** **adlıq halda olan isimlərlə düzələnlər**: *əl çək, göz qoy, baş vur, qulaq as*

**b.** **yönlük halda olan isimlərlə düzələnlər**: *başa düş, ələ sal, dilə düş, başa gəl*

**c.** **çıxışlıq halda olan isimlərdən düzələnlər**: *yoldan az, əldən sal, gözdən düş, başdan sov*

**ç.** **çox az hallarda, yerlik halda olan isimlərlə düzələnlər**: *gözdə-qulaqda ol, arxada sürün*

## 27-ci Dərs: Anasöz

Eyləmlərdə iş, hərəkət və halın adına anasöz (məsdər) deyilir. Azərbaycan Türkcəsində, anasözün əlaməti qalın səsli eyləmlərdə *"-maq"*, incələrdə isə *"-mək"*-dir, **örnək:** *yazmaq, girmək, dolmaq, getmək, vurmaq, bilmək*.

## 28-ci Dərs: Eyləmin Danması

İş və hərəkətin görüldüyünü göstərən eyləmlərə doğrulama, görülməməsini bildirənlərə isə danma eylәmi deyilir. Danma formasının əlaməti *"-ma, -mə"*-dir. Bu əlamət, bir-başa, şəkilçilərdən qabaq, eyləmin kökünə yapışar, **örnək:** *yat<u>ma</u>maq, bil<u>mə</u>mək*.

## 29-cu Dərs: Tə'sirli və Tə'sirsiz Eyləmlər

Vasitəsiz tamamlıq (məf'ul) tələb edən eyləmlərə tə'sirli (mütəəddi) eyləm deyilir. Amma tə'siri işgörəndə qalıb, vasitəsiz tamamlıq istəməyən eyləmlərə tə'sirsiz (lazim) eyləm deyilir, **örnək:**

- **tə'sirli:** *görmək, oxumaq, almaq, demək*
- **tə'sirsiz:** *gəlmək, qaçmaq, batmaq, getmək*

➢ Tə'sirli eyləmlərin növləri:

1. Sadə və düzəltmə eyləmlərin bir qismi etkən (mə'lum) növdə, heç bir özəl əlamətə malik olmadan, tə'sirli olur. **örnək:** *gör, at, dişlə, danla*.
2. Sadə və düzəltmə eyləmlərin bir qismi etkən, qayıdış və qarşılıq növlərdə özəl şəkilçilər götürməklə, tə'sirli olur, **örnək:** *qaç → qaçırt, yat → yatırt*.

➢ Tə'sirsiz eyləmlərin etkən növünə aşağıdakı şəkilçiləri artırmaqla, tə'sirli olur:

**-t**: *quru → qurut, bənzə → bənzət*
**-ar, -ər**: *çıx → çıxar , qop → qopar*
**-ır, -ir, -ur, -ür**: *qaç → qaçır, piş → pişir, uç → uçur, düş → düşür*
**-dır, -dir, -dur, -dür**:

i. bu şəkilçilər bütün tə'sirli eyləmlərdə, tə'sirlilik dərəcəsini daha da artırmaqla, eyləmə ikinci bir dolayılı (qeyri-müstəqim) tamamlıq yaratmaqda qulluq edir, **örnək**: *yaz → yazdır, poz → pozdur, vur → vurdur, gör → gördür*.

**ii.** bu şəkilçilər bütün tə'sirsiz etkən, qayıdış və qarşılıqlı eyləmləri, heç bir *"gərəklilik"* məzmunu ifadə etmədən, tə'sirli eyləm edir, **örnək**:

- **tə'sirsiz etkən eylemlər**: *əs → əsdir, çaş → çaşdır*
- **tə'sirsiz qayıdış eyləmlər**: *yuyun → yuyundur, deyin → deyindir*
- **tə'sirsiz qarşılıq eyləmlər**: *barış → barışdır, vuruş → vuruşdur*

**-dar, -dər** : *qon → qondar, dön → döndər*

**-ız, -iz, -uz, -üz**: *qalx → qalxız, qorx → qorxuz*

## 30-cu Dərs: Eyləmlərin Növü

1. **Etkən eyləmlər (mə'lum fe'l):** eyləmin işgörəni bəlli olsa, ona etkən eyləm deyilir. Həm tə'sirsiz, həm də tə'sirli eyləmlər etkən olar, **örnək:** *Ağşın gəldi. (tə'sirsiz), Aylar dərsini oxudu. (tə'sirli)*
2. **Edilgən eyləm (məchul fe'l):** işgörən bəlli olmasa, eyləmə edilgən deyərlər, **örnək:** *Məktub yazıldı*.

   Azərbaycan Türkcəsində eyləmləri edilgən etmək üçün işlədilən şəkilçilərin ən önəmlisi bunlardır:

   **-ıl, -il, -ul, -ül**: *yazdı → yazıldı, dedi → deyildi, oydu → oyuldu, söydü → söyüldü*

   **-ın, -in, -ul, -ül**: *yoldu → yolundu, böldü → böləndü*

3. **Qayıdış eyləmi:** eyləmin məzmunu işin nəticəsini işgörənin özünün üstünə qaytarsa, belə eyləmlərə qayıdış eyləmləri deyilər. Demək, bu eyləmlər edilgən eyləmlərin əksinədir, **örnək:** *yuyundu, sevindi, deyindi, öyündü*.

   - Qayıdış eyləmi düzəldən şəkilçilər:
     **-ın, -in, -un, -ün :** *sev → sevindi, sür → süründü*
     **-ıl, -il, -ul, -ül:** *aç → açıldı, vur → vuruldu*

4. **Qarşılıq eyləmi:** eyləmin anlamı elə olsa ki, işi iki şəxs qarşılıqlı (mütəqabil) şəkildə görələr, belə eyləmlərə qarşılıq eyləmi deyilir. **Örnək:** *yazışmaq, vuruşmaq, görüşmək, sevişmək, sözləşmək*.
5. **Gərəkli eyləm:** bu eyləmlərdə iş bir nəfərin buyruğu, istəyi, məsləhəti vəya tədbiri ilə ikinci vəya ikinci şəxsin yoluyla üçüncü şəxs tərəfindən görülür.

Bu eyləmlər, yalnız tə'sirli eyləmlərdən düzələr. **Örnək:** *atdırmaq, oxşatdırmaq, oxutdurmaq, işlətdirmək*.

## 31-ci Dərs: Eyləmlərdə Zaman

**1.** Keçmiş zaman: bu zaman iş və hərəkətin keçmişdə baş verdiyini bildirir:

**i.** şühudi keçmiş (mütləq keçmiş): bu keçmiş zaman, işin keçmişdə baş verib qurtardığını bildirir. Onun şəkilçiləri dördçeşidli *"-dı, -di, -du, -dü"*-dən ibarətdir. Bu keçmiş zamanın danma əlamati *"-ma, -mə"*-dir.

**Şühudi Keçmişin Təsrifi**

| şəxs | doğrulama | danma |
|---|---|---|
| 1-ci tək | aldım | almadım |
| 2-ci tək | aldın | almadın |
| 3-cü tək | aldı | almadı |
| 1-ci toplu | aldıq | almadıq |
| 2-ci toplu | aldınız (z) | almadınız (z) |
| 3-cü toplu | aldılar | almadılar |

**ii.** nəqli keçmiş: bu zamanda, xəbər verən, keçmişdə olmuş bir işdən nəql edir, çünki özü onun görülməsinin şahidi olmamışdır. Nəqli keçmişin əlamati dördçeşidli *"-mış, -miş, -muş, -müş"*-dür. Bu zamanın danma əlaməti *"-ma, -mə"*-dir. İkinci və üçüncü şəxslərdə, dördçeşidli *"-ıb, -ib, -ub, -üb"* şəkilçisini də işlədərlər.

**Nəqli Keçmişin Təsrifi**

| şəxs | doğrulama | danma |
|---|---|---|
| 1-ci tək | almışam | almamışam |
| 2-ci tək | almısan=alıbsan, almısan | almamışsan=almayıbsan=almamısan |
| 3-cü tək | almışdır=alıb(dır) | almamışdır=almayıb(dır) |
| 1-ci toplu | almışıq | almamışıq |

| | | |
|---|---|---|
| 2-ci toplu | almışsınız (z)= alıbsınız (z) | almamışsınız (z)=almayıbsınız (z) |
| 3-cü toplu | almışlar=alıblar | almamışlar=almayıblar |

**iii.** davamlı keçmiş (istimrari keçmiş): bu zaman, işin keçmişdə uzun bir müddətdə baş verdiyini bildirir. Bu zamanın əlaməti dördçeşidli *"-ırdı, -irdi, -urdu, -ürdü"* vəya ikiçeşidli *"-ardı, -ərdi"*-dən ibarətdir. Bu zamanın danma əlamati *"-maz, -məz, -m"*-dir.

**Davamlı Keçmişin Təsrifi 1**

| şəxs | doğrulama | danma |
|---|---|---|
| 1-ci tək | yazırdım | yazmayırdım= yazmırdım |
| 2-ci tək | yazırdın | yazmayırdın=yazmırdın |
| 3-cü tək | yazırdı | yazmayırdı=yazmırdı |
| 1-ci toplu | yazırdıq | yamayırdıq=yazmırdıq |
| 2-ci toplu | yazırdınız (z) | yazmayırdınız=yazmırdınız (z) |
| 3-cü toplu | yazırdılar | yazmayırdılar=yazmırdılar |

**Davamlı Keçmişin Təsrifi 2**

| şəxs | doğrulama | danma |
|---|---|---|
| 1-ci tək | yazardım | yazmazdım |
| 2-ci tək | yazardın | yazmazdın |
| 3-cü tək | yazardı | yazmazdı |
| 1-ci toplu | yazardıq | yazmazdıq |
| 2-ci toplu | yazardınız (z) | yazmazdınız (z) |
| 3-cü toplu | yazardılar | yazmazdılar |

**iv.** uzaq keçmiş (bəid keçmiş): bu zaman, işin uzaq keçmişdə baş verdiyini bildirir. Onun əlamati dördçeşidli *"mışdı, mişdi, muşdu, müşdü"*-dən ibarətdir. Bu şəkilçilər *"miş idi"* şəklində də işlənər. Bu zamanın danma əlamati *"-ma, -mə"*-dir.

**Uzaq Keçmişin Təsrifi**

| şəxs | doğrulama | danma |
|---|---|---|
| 1-ci tək | tapmış idim= tapmışdım | tapmamış idim=tapmamışdım |
| 2-ci tək | tapmış idin= tapmışdın | tapmamış idin=tapmamışdın |
| 3-cü tək | tapmış idi= tapmışdı | tapmamış idi=tapmamışdı |

**Uazaq Keçmişin Təsrifi** (ardı)

| şəxs | doğrulama | danma |
|---|---|---|
| 1-ci toplu | tapmış idik= tapmışdıq | tapmamış idik=tapmamışdıq |
| 2-ci toplu | tapmış idiniz= tapmışdınız (z) | tapmamış idiniz=tapmamışdınız |
| 3-cü toplu | tapmış idilər= tapmışdılar | tapmamış idilər=tapmamışdılar |

**2.** İndiki zaman: bu zaman, işin, danışılan vaxt baş verdiyini bildirir. İndiki zamanın şəkilçiləri dördçeşidli *"-ır, -ir, -ur, -ür"*-dən ibarətdir, örnək: *bil + ir → bilir, yor + ur → yorur*.
Eyləmin kökü səsli ilə qurtarsa, iki səsli arasında *"-y-"* hərfi gələr. Örnək: *de + y + ir → deyir*.
Bu zamanın danma əlamati *"-ma, -mə"* vəya yalnız *"-m"* hərfidir. *"-ma, -mə"* olsa, iki səsli arasında *"-y-"* hərfi gələr, örnək: *al + ma + yır → almayır*.

**İndiki Zamanın Təsrifi**

| şəxs | doğrulama | danma |
|---|---|---|
| 1-ci tək | gəlirəm | gəlməyirəm=gəlmirəm |
| 2-ci tək | gəlirsən | gəlməyirsən=gəmirsən |
| 3-cü tək | gəlir | gəlməyir=gəlmir |
| 1-ci toplu | gəlirik | gəlməyirik = gəlmirik |
| 2-ci toplu | gəlirsiniz (z) | gəlməyirsiniz=gəlmirsiniz (z) |
| 3-cü toplu | gəlirlər | gəlməyirlər=gəlmirlər |

**3.** Gələcək zaman: bu zaman, işin gələcəkdə baş verdiyini bildirir:

**i.** qət'i gələcək: bu zaman, işin kəskinliklə gələcəkdə baş verdiyini bildirir. Onun şəkilçiləri *"-acaq, -əcək"*-dən ibarətdir. Bu zamanın danma əlamati *"-ma, -mə"*-dir, örnək: *alacaq, gələcək, almayacaq, gəlməyəcək*.

Bu zamanın şəkilçilərindən sonra, səsli ilə başlanan şəkilçi gəlsə, *"q"* hərfi *"ğ"*-yə və *"k"* hərfi *"g"* vəya *"y"*-yə çevrilər, örnək: *alacağam, gələcəyəm*.

**Qət'i Gələcəyin Təsrifi**

| şəxs | doğrulama | danma |
|---|---|---|
| 1-ci tək | öyrənəcəyəm | öyrənməyəcəyəm |
| 2-ci tək | öyrənəcəksən | öyrənməyəcəksən |
| 3-cü tək | öyrənəcək(dir) | öyrənməyəcək(dir) |
| 1-ci toplu | öyrənəcəyik | öyrənməyəcəyik |
| 2-ci toplu | öyrənəcəksiniz (z) | öyrənməyəcəksiniz (z) |
| 3-cü toplu | öyrənəcəklər=öyrənəcəkdirlər | öyrənməyəcəklər |

**ii.** qeyri-qət'i gələcək: bu zaman, işin, yaxın gələcəkdə qeyri-qət'i şəkildə baş verəcəyini bildirir və əlamati *"-ar, -ər"*-dir. Bu zamanın danma əlamati *"-m"*-dir, örnək: *gələrəm, baxaram, gəlmərəm, baxmaram*.

**Qeyri-qət'i Gələcəyin Təsrifi**

| şəxs | doğrulama | danma |
|---|---|---|
| 1-ci tək | gedərəm | getmərəm |
| 2-ci tək | gedərsən | getməzsən |
| 3-cü tək | gedər | getməz |
| 1-ci toplu | gedərik | getmərik |
| 2-ci toplu | gedərsiniz (z) | getməzsiniz |
| 3-cü toplu | gedərlər | getməzlər |

## 32-ci Dərs: Eyləmlərdə Bitişən Şəxs Əvəzlikləri

1. Birinci tək şəxs: bu şəxsin əlamati *"-m"*-dir, örnək: *yazdım, görürəm*.
2. **Birinci toplu şəxs:** bu şəxsin əlaməti *"-q, -k"*-dir, **örnək:** *yazdıq, gördük, baxırıq, gələsiyik*.
3. **İkinci tək şəxs:** bitişən şəxs əvəzliyi bu şəxsdə, *"-n"*-dir, **örnək:** *qaldın, gəldin, görəsən, qalmalısan*.
4. **İkinci toplu şəxs:** bu şəxsin bitişən əvəzliyi *"-z"*-dir, **örnək:** *yazdız, gördüz, gələcəksiniz, görmüşsünüz*.

   Eyləmin kökü səssizlə bitəndə, buyuruq formasında, bitişən şəxs əvəzliyi dördçeşidli *"-ın, -in, -un, -ün"* vəya dördçeşidli *"-ız, -iz, -uz, -üz"* olar, örnək: *gəlin = gəliz, baxın = baxız*.
5. **Üçüncü tək şəxs:** bu şəxsin, indiki zamanda, bitişən şəxs əvəzliyi olmaz. Amma başqa zamanlarda belə olar:
   - **şühudi keçmiş**: *yazdı, gəldi*
   - **uzaq keçmiş**: *yazmıs idi*
   - **qeyri-qət'i gələcək**: *yazar, gələr*
   - **iltizam, arzı**: *gərək yaza*
   - **şərt**: *yazsa, getsə*

   Eyləmlərin qalan zamanlarında, bu şəxsin əvəzliyi dördçeşidli *"-dır, -dir, -dur, -dür"*-dən ibarətdir, **örnək:** *yazacaqdır, görmüşdür, yazasıdır, gəlməməlidir*.
6. **Üçüncü toplu şəxs:** bu şəxsin bitişən şəxs əvəzliyi yalnız *"-lar, -lər"*-dir, **örnək:** *gəldilər, yazdılar, getməlidirlər, yazsınlar*.

## 33-cü Dərs: Eyləmin Şəkilləri

### 1. Buyuruq (əmr) şəkli:

i. **birinci şəxs:**

- **tək şəxs:** *"-ım, -im, -um, -üm, -yım, -yim, -yum, -yüm"*, örnək: *gəlim, alım, vurum, görüm, qalayım, ələyim, qoruyum, sürüyüm*
- **toplu şəxs:** *"-aq, -ək, -yaq, -yək"*, örnək: *alaq, gələk, qalayaq, ələyək*

ii. **ikinci şəxs:**

- **tək şəxs:** bu şəxsdə, buyuruq eyləmin kökü olur, örnək: *yaz, get, gör, vur*.
- **toplu şəxs:** *"-ın, -in, -un, -ün, -ız, -iz, -uz, -üz"*, örnək: *baxın, gülün, gəliz, vurun, alız, sökün, töküz*

iii. **üçüncü şəxs:**

- **tək şəxs:** *"-sın, -sin, -sun, -sün"*, örnək: *alsın, bilsin, qoysun, görsün*
- **toplu şəxs**: "-sın, -sin, -sun, -sün" + "-lar, -lər", örnək: *alsınlar, bilsinlər, qoysunlar, görsünlər*

### 2. Xəbər formasının ikinci növü (idi, imiş):

kök + zaman şəkilçisi + köməkçi eyləm + şəxs sonluğu:

i. **idi:**

- **nəqli xəbər forması:** *yazmış idim = yazmışdım, yazmış idin = yazmışdın*
- **isimlərdə:** *Yaşar idi, Solmaz idi*
- **sifitlərdə:** *yasxşı idi, yaman idi*
- **əvəzliklərdə:** *bu idi, onlar idilər*
- **saylarda:** *az idi, çox idi*

- **zərflərdə:** *bərk idi, əliboş idi*
- **anasözlərdə:** *yazmaq idi, bilmək idi*

ii. **imiş:**
- **nəqli keçmişdə:** *gəlmiş imişəm, gəlmiş imişsən, ...*
- **isimlərdə:** *Araz imiş, Maral imiş*
- **sifətlərdə:** *pis imiş, qara imiş*
- **əvəzliklərdə:** *o imiş, bunlar imişlər*
- **saylarda:** *bir imiş, altı imiş*
- **zərflərdə:** *qaça-qaça imiş*
- anasözlərdə: *görmək imiş, baxmaq imiş*

3. **Qeyri-şühudi şəkil:**
- **nəqli keçmişdə:** *vurmuşmuşam, vurmuşmuşsan , ...*
- **davamlı keçmişdə:** *gəlirmişdim, gəlirmişdin, ...*
- **davamlı keçmişdə (2-ci növ):** *gələrmişdim, gələrmiş -din, ...*
- **uzaq keçmişdə**: *ələmiş idimmiş, ələmişdinmiş, ...*
- **indiki zamanda:** *yazırmışam, yazırmışsan, ...*
- **qət'i gələcəkdə:** *qalayacaqmışam, qalayacaqmışsan, ...*
- **qeri-qət'i gələcəkdə:** *sürərmişəm, sürərmişsən, ...*

4. **Eyləmlərin lazım şəkli:**

i. **sadə forma:** kök + -ası, -əsi → *alasıyam, gedesiyəm*

ii. **mürəkkəb forma:** kök + -ası idi, -əsi idi → *alası idi, gedəsi idi*

5. **Eyləmin iltizam-arzı şəkli:**

i. **sadə iltizam-arzı şəkli:** kök + -a, -ə → *qaç<u>a</u>q, gör<u>ə</u>m*

ii. **mürəkkəb iltizam-arzı şəkli:** gərək + kök + -a,-ə + idi → *<u>gərək</u> qaç<u>aydım</u>, <u>gərək</u> gör<u>əydin</u>*

6. **Eyləmin vacib şəkli:**

i. **sadə vacib şəkil:** kök + -malı,-məli → *al<u>malı</u>dır, bil<u>məli</u>dir*

ii. **mürəkkəb vacib şəkil**: kök + -malı, -məli + idi → *yaz<u>malıydıq</u>, get<u>məliydin</u>*

7. **Eyləmin davam şəkli:**

i. **sadə davam şəkli:** kök + -maqda, -məkdə → *yaz<u>maqda</u>ydım, gəl<u>məkdə</u>dir*

ii. **mürəkkəb davam şəkli:** kök + -maqda, -məkdə + idi → *oxu<u>maqdayd</u>ılar, gör<u>məkdəyd</u>iniz*

***8.** Eyləmin şərt şəkli:*

i. **sadə şərt şəkli:** kök + -sa, -sə → *aç<u>sa</u>m, gör<u>sə</u>n*

ii. **mürəkkəb şərt şəkli:** kök + -sa, -sə + idi → *aç<u>saydın</u>, gör<u>səydi</u>*

## 34-cü Dərs: Eyləmin Ümumi Şəkilləri

1. Eyləmin bacarıq şəkli: kök + -a, -ə + bilmək → *yaza bilərəm, görə bilərsən, oxuya bilir, istəyə bildik*
2. Eyləmin sorğu şəkli: eyləm + -mı, -mi, -mu, -mü → *yazdınmı?, bildinmi?, qoymuşsunuzmu?, gördünüzmü?*

## 35-ci Dərs: Eyləmlik Bağlamalar

1. **-ıb, -ib, -ub, -üb (-yıb, -yib, -yub, -yüb):**

    *O kişi qurtarmayıb qoyub getdi.*

2. **-anda, -əndə:**

    *Mən gedəndə kitabı apararam.*

3. **-arkən, -ərkən (-yarkən, -yərkən, -ırkən, -irkən, -urkən, -ürkən, -yırkən, -yirkən, -yurkən, -yürkən, -mışkən, -mişkən, -muşkən, -müşkən):**

    *Gecə yatmağa hazırlaşarkən göy guruldadı.*

4. **dıqda, -dikdə, -duqda, -dükdə:**

    *Rəis içəri girdikdə hamı ayağa qalxdı.*

5. **-dıqca, -dikcə, -duqca, -dükcə:**

    *Səttar xanın ölümü faciəsinə fikirləşdikdə insan təəssüflənir.*

6. **-ınca, -incə, -unca, -ünca (-yınca, -yincə, -yunca, -yüncə):**

    *Ana, əsgər gedən oğlu gözdən itincə dalınca baxdı.*

7. **-alı, -əli (-yalı, -yəli):**

    *Sizin yerinizə qonaq gələli halım düzəlibdir.*

8. **-madan, -mədən:**

    *Çalmadan oynayır.*

9. **-mış, -miş, -muş, -müş:**

    *Müəllimin dərsi qurtarmamış zəng çalındı.*

**10. birinci eyləm** ***"-ar, -ər"*****, ikinci eyləm** ***"-maz, -məz"*****:**

*Uşaq evə çatar-çatmaz su istədi.*

**11. -caq, -cək:**

*Elnaz evə yetişcək uzanıb yatdı.*

**12. -andan, -əndən (-yandan, -yəndən):**

*Su başdan aşandan sonra ya bir qarış, ya da bir arşın.*

**13. -an, -ən (-yan, -yən):**

*Uşaq dərsi oxuyan kimi başa düşdü.*

**14. -araq, -ərək (-yaraq, -yərək):**

*Babək xalqın haqsızlığını və əzilməsini düşünərək ayağa qalxdı.*

***15.*** **-ana, -ənə:**

*Qatar gələnə qədər gözləməliyəm.*

**16. -dığı, -diyi, -duğu, -düyü:**

*Yazdığın kimi danış. Gördüyün kimi söylə.*

## 36-cı Dərs: Zərf

Cümlələr içindəki iş və hərəkətin necə icra olunmasını, icra olunduğu zamanı, yeri, səbəbi, ... bildirən sözlərə zərf deyilir.

1. **Hərəkət tərzi zərfləri:**

   bu zərflər *"necə?, nə cür?, nə halda?"*-ya cavab verən zərflərdir.

   i. **sadə zərflər:** *düz, tez, dik, yavaş, ...*
   ii. **düzəltmə zərflər**: *bərkdən, tərsinə, şiddətlə, igidcəsinə, yavaşca, zorakı, danışmaz, ...*
   iii. **mürəkkəb zərflər:** *gup-gup, dalbadal, birdən-birə, əl-ələ, ...*

2. **Zaman zərfləri:**
   i. sadə zərflər: *dünən, indi, ...*
   ii. düzəltmə zərflər: *hələlik, öncə, axşamdan, ...*
   iii. mürəkkəb zərflər: *tez-tez, o gün, axşam bası, aybaay, ...*

3. **Yer zərfləri:**
   i. sadə zərflər: *arxa, yan, ...*
   ii. düzəltmə zərflər: *yaxınlıqda, ortalığa, ...*
   iii. mürəkkəb zərflər: *orda, burda, bu evdə, hər yandan, bir yanda, ...*

4. **Miqdar zərfləri:**
   i. sadə zərflər: *az, çox*
   ii. düzəltmə zərflər: *bütünlüklə, dəfələrlə, arşınca, azdan, ...*
   iii. mürəkkəb zərflər: *az-az, bir-bir, bir ağız, ...*

**Qaynaqça:**


1. Xalqın danışıq dili.
2. "Müasir Ədəbi Azəri Dili", Dr. M.T. Zehtabi, Eldar-Aşina Yayınevləri, Təbriz, 1370 (1991).
3. "Azərbaycanca-Farsca Sözlük", B. Behzadi, Dünya Yayınevi, Tehran, 1369 (1990).
4. "Okul Sözlüğü", Türk Dil Kurumu, Ankara, 1994.